# SÖZ GƏLDİ YOLÜSTÜ... DEDİM ƏLÜSTÜ...



AĞASƏFA

### Gəvəzələr

*Təzə çıxan gəvəzələr*
*Köhnələri əvəz elər.*

*Bizdə adət belədir:*
*Endirilir bir başa*
*Əlli qapaz birbaşa!*

### Gülüş

*O elə ucadan gülür,*
*Elə bil üç adam gülür.*

*Qızımın əmək dərsi*
*Öyrəndin un ələməyi?*
*Bildin nədir əl əməyi?*

### Qocalıq gələndə

*Qocalıq gələndə*
*bitir dastanlar,*
*"Dastan" deyiləni*
*ancaq dost anlar.*

### Dən ki düşdü...

*Dən ki düşdü saqqala,*
*Şair çətin sağ qala...*

### İlan adam düsturu

*Mənə çoxdan bəllidir*
*İlan adam düsturu*
*Toxunmasan, dəyməsən,*
*Sənə "məhrəm dost" olur.*

### Tapança

*Tapança-*
*tapmacadır,*
*Açması, açılması:*
*Fəlakət...*
*Açılmasa yaxşıdır...*
*Açılmazı:*
*Sələmət...*

### Yazıçılar Birliyinin girəcəyində bidiriş:

*Burda bilet verirlər,*
*Olursan Birliyin üzvü.*
*İstedad vermirlər a...*
*Pay umub, döymə gözüvü,*
*Özündə axtar özüvü.*

### Fərq

*Gör nədir fərqləndirən*
*İki gözəl şairi:*
*Biri Xalq şairidir,*
*O biri El şairi.*

### Bərk gedənlər

*Bərk gedənlər*
*yeyib, şişib,*
*tox olanda*
*Ayağının altına da*
*baxa bilmir.*
*Və... ilişib*
*üzü üstə yıxılanda*
*qalxa bilmir.*

### Ədalət sarayında divar yazısı

*Nəfsiniz güc gələndə*
*Çox yeməkdən çəkinin.*
*Burda tamahkarların*
*Tamah dişi çəkilir.*

### Pulgir balası

*Zırpı pulgir balasıdır,*
*Hər işini pul aşdırır.*
*Bir çimdik istedadı var,*
*Bir ümmanı bulaşdırır.*

### Rus demişkən

*Atın qabağında ət,*
*İtin qabağında ot...*
*Rus demişkən:*
*Na tebe! Vot!*

### Rüşvət səfiri

*Rüşvət səfirisən bu mahalda, bilir hamı,*
*Nəfsin əsir edib səni, pabəstəsən, adam.*
*Bir gün zəhər dadacaq ağzının tamı,*
*Nəfsin əlacı betərdir...*
*Yeri, bərk xəstəsən, adam.*

*Bir ərköyün dostuma*
*Çağırdım, gəl, mey iç,*
*bizə yoldaş ol.*
*Daha demədim ki,*
*vur,yıxıl, leş ol.*

### Cizgi-etüd

*Dədə-baba ocağında*
*Köhnə kürkün üstündə:*
*Nəvə baba qucağında-*
*Pöhrə kökün üstündə.*

### İt var... İt var...

*İt var ki, boş-boşuna*
*Kimsəsiz yola hürür.*
*İt var ki, dollar tanıyır,*
*Qısqırdırlar, pula hürür.*

### Nadanla...

*Mən deyirəm:-Yer yumrudur...*
*O hay salır:- Çarpayıdır!*
*Nadanla yola çıxanın*
*Mənzil başında vayıdır...*

### Sancma

*Arıçını arı sancar,*
*Nəştərin yeri sızlar.*
*Qocanı qarı sancar,*
*Cavanı dilli qızlar.*

### Məlikməmmədin quyusu

*Məlikməmmədin quyusu*
*İndiki metro kimidir.*
*Orda başına gələnlər*
*Kinodu-retro kimidir.*

### Elə bil...

*Allah da şahiddir...*
*Gizli deyil ki,*
*Hələ bir ağrıya sinə gərməyib.*
*Bu şair döşünə elə döyür ki,*
*Elə bil bu dünya şair görməyib.*

### Gedirəm Xəzərdə çimim

*Kəndimizə gəlmişdi*
*Maşında yayxanıb yenə...*
*Gedirəm Xəzərdə çimim,*
*Qudurmuş haramxorun*
*Nəfəsi toxunub mənə...*

### Otur yerində

*Otururam, "Qalx!" deyir,*
*Qalxıram, "Otur!" deyir.*
*"Otur-Dur ölkəsində*
*Qaydamız budur" deyir.*

### Hələ...

*Xalq danışmır...*
*Hələ amandasan...*
*Zənn eləmə təxti-Süleymandasan.*
*Bir də görərsən ki, atıblar səni,*
*Ac-yalavac çöldə-biyabandasan.*

### Qonşuda

*Pərzadın bir əri var,*
*Şirbala... ya Şirzaddır.*
*Dəmlənir, nərə çəkir,*
*Hamı deyir:*
*-Şir zaddır.*

### Gücü çatmır

*Gücü çatmır fələyin*
*əyriləri düzləməyə,*
*Əyrilər düz divar ilə*
*yeriyir düz ləməyə.*

### Kəndin güdükçüsü

*Dolayır barmağına*
*daş gətirib, ev tikəni.*
*Çalışır "Hoppp!" eləsin,*
*Qapsın əlindən tikəni.*

### Bilmirəm...

*Gah yazır, millisayaq,*
*Gah da ki, Avropasayaq.*
*Bilmirəm indi bunu*
*Milli sayaq,*
*Yoxsa ki, Avropa sayaq?*

### Məhrəm adam

*Çəkdi öz qoltuğuna,*
*Məhrəm adam sandığını.*
*O da üç gündə açıb-*
*Tökdü bunun sandığını.*

### İtim Cekə

*Dədən-baban dəbində*
*Verdim, yedin bulama.*
*Otur taya dibində,*
*Quyruğunu bulama.*

### Yoxsa...

*Ölüyə pay verərlər,*
*Ölüdən pay umulmaz.*
*Öləndə bu pulbazın*
*İstir-kafir yerinə*
*Qoltuğuna pul basın,*
*Yoxsa gözü yumulmaz.*

### Qoymurlar

*Rəqəmlərin yükünü*
*Dəyişdirən "məmurlar"*
*İki dəfə ikini*
*Dörd olmağa qoymurlar.*

### Ünvansız

*Şeytan ünvansız yaşayır,*
*Hey səfil-səfil dolaşır.*
*Gürzə ilana oxşayır,*
*Ayağa qəfil dolaşır.*

### Tülkü dərisi

*Anadangəlmə tülküsən,*
*Sənsən tülkünün irisi.*
*Deyim, onu da bil ki, sən*
*Yaman qiyamət görünür*
*Boynunda tülkü dərisi.*

*Kefli günün səhəri*
*Oyandı əzgin-əzgin,*
*Gözləri əzgil-əzgil...*

### Kəmfürsət

*Çatdığını,*
*Tutduğunu*
*Yıxır-soyur,*
*Kəsib-soyur.*
*Yuxarıya*
*Əli çatmır,*
*Aşağıda*
*Fağır soyur,*
*Kasıb soyur...*

### Atmaca

*Bir namərd gəldi bizə,*
*"Atın oynatdı, getdi."*
*Yamanlar çıxdı üzə,*
*Yaxşılar batdı, getdi.*

### "Virtioz kimdir?" soruşana cavab

*Adam var-qurdu çoxdur,*
*Adam var-qurdu azdır.*
*Kimin ki, qurdu yoxdur,*
*Demək, o virtiozdur.*

### Sələmlə borc götürən dostuma

*Kredit ki, deyirlər,*
*Ondan əlhəzər! Oy! Oy!*
*Bir sən bil bunu, bir mən:*
*Pulun üstünə əl qoy,*
*Pulun altına girmə.*

### O key...

*Hamı bunu nişan verir:*
*- O küt!-deyir,*
*- O key!-deyir.*
*Tumarlayır qalstuku,*
*Bu da gülür,*
*Əl eləyir,*
*Yad dilində:*
*- Okey!-deyir.*

### Bir atım barıtla...

*Dünyaya ürəksiz seyrə gələnlər,*
*Gəzib, özlərini yordular ancaq.*
*Bir atım barıtla şeirə gələnlər*
*Şeirin qanadını qırdılar ancaq.*

### Mürgü

*Durub işdən evə getmir*
*Çatmayınca,*
*Batmayınca əli bala.*
*Kreslosu beşik kimi...*
*Yumurlanıb pişik kimi*
*Mürgüləyir*
*Əli bala...*

*Xızı, Qarabulaq kəndi*